# YAR HƏR YERƏ MƏNNƏN GETDİ, ƏCƏL GƏLCƏK, ONNAN GETDİ...



*Sona Çərkəz*

**Vətənini, xalqını, el-obasının adət-ənənələrini və nəhayət, qəlb dostunu misilsiz sevgi ilə sevən və bu sevgi toxumunu qəlblərə səpən Şəhriyar tək İranda deyil, bütün Yaxın və Orta Şərqdə tanınan, oxunan və sevilən şairlərdəndir. XX əsr ədəbiyyatının əvəzsiz simalarından olan, "mənim də bir adım gəlsin dilizə" deyərək həsrətdən haray çəkən Məhəmmədhüseyn Şəhriyarın adı dilimizdən, söylədikləri qəlbimizdən heç bir zaman silinməz. Böyük ədəbiyyatşünas Mir Cəlal müəllimin təbiri ilə desəm, Məhəmmədhüseyn Şəhriyar ədəbiyyatımızın zəhmətkeşlərindən idi. Onun elmi fəaliyyəti, ədəbi yaradıcılığı qollu-budaqlı, barlı-bəhrəli olub. Şəhriyar hər bir azərbaycanlı üçün zirvədə duran şairlərdəndir. Onu çox haqlı olaraq "şairlərin Şəhriyarı" da adlandırırlar. Şəhriyar sözün bütöv mənasında anadan doğulandan şair doğulmuşdu. O, böyük ədəbi taleyində qələminin qeyri-adi sadəliyi və xalqına yaxınlığı ilə qəlblərdə taxt-taca sahib olub desəm, daha doğru olar. Bu dahi şairin yaşadığı dövrdə sevənləri də, həsəd aparanları da çox olmuşdur.**

Məhəmmədhüseyn Şəhriyar 1906-cı ildə Təbrizin Bağmeşə bölgəsində o dövrün tanınmış və sayılıb-seçilən hüquqşünaslarından olan Hacı Mirağa Xoşginabinin ailəsində dünyaya göz açmışdır. Məhkəmədə vəkil işləyən atası şeiri və musiqini çox sevərmiş, anası Kövkəb xanım isə xalq yaradıcılığı nümunələrindən, bayatı və qəzəllərdən, xüsusilə də Seyid Əzim Şirvaninin qəzəllərindən balaca Şəhriyara oxuyarmış. Bütün bunlar Şəhriyar yaradıcılığında apaydın görünməkdədir.

Təbrizdə orta təhsilini başa vuran Məhəmmədhüseyn Şəhriyar Tehran Universitetinin tibb fakültəsinə daxil olur. 19-20-ci illərin ortalarında ədəbi aləmdə Şəhriyar artıq istedadlı şair kimi tanınır. Onun şeirləri Füzulinin qəzəlləri ilə bərabər tutulur və dillərdən düşmür. Poemaları və qəsidələri qiymətli poeziya nümunəsi olaraq qəbul edilir. Böyük Şəhriyar şeirin bütün formalarında yazır və hansı üslubda yazırsa-yazsın, onun əsas mövzusu dəyişilməz olaraq qalır. Bu mövzu isə onun əzəli və əbədi arzularından doğan - vətənin bütövlüyünü, azadlığını, birliyini görmək və qanı-canı bir olan qardaşları ilə görüşməkdir.

Azərbaycandan uzaqlarda yaşamağa məhkum edilən, bunu haqlı olaraq çəkilməz dərd bilən Şəhriyar özünün qəriblik nisgillərini vətənin parçalanmış taleyi ilə bərabər tutub ömrü boyu. Onun yaradıcılığında Azərbaycan həsrəti damarlarından axan qana dönmüşdü:

**Könlüm quşu qanad çalmaz, sənsiz bir an, Azərbaycan**
**Xoş günlərin getməz müdam xəyalımdan Azərbaycan**
**Səndən uzaq düşsəm də mən eşqin ilə yaşayıram**
**Yaralanmış qəlbim kimi, qəlbi viran Azərbaycan.**

Şəhriyarın fikrincə, vətənin də onun özü kimi ağır-ağır dərdlərinin dərmanı ancaq azadlıqdır. Ana dilində yazdığı əsərlərinin qanadlarında o, sanki Azərbaycana gəlib gəzir, sevənləri ilə görüşür, fikrini-düşüncələrini oxucuları ilə bölür, ürəyindəki arzuları onlara çatdıra bilir və yenə bir ömür alnına yazılmış həsrətə doğru yol gedir. Məhəmmədhüseyn Şəhriyarın ana dilimizdə yazdığı "Heydərbabaya salam" poeması onun ömür boyu çəkdiyi yurd həsrətinin rəngidir, anasının laylasıdır, qəlbinin nəğməsidir, daxili dünyasının ab-havasıdır, elinin-obasının təəssübüdür. Bu əsər vətənpərvərlik dastanıdır, el-obaya vurğunluğun təzahürüdür, Şəhriyar qeyrətidir, Şəhriyar heyrətidir. Bir sözlə, "Heydərbabaya salam" mənim aləmimdə xatirələr yuvasıdır. Bu poemada o, nələrdən bəhs etmir?..

**Heydərbaba, yolum səndən kəc oldu,**
**Ömür keçdi, gələmmədim, gec oldu,**
**Heç bilmirəm gözəllərin nec oldu,**
**Bilməz idim döngələr var, dönüm var,**
**İtkinlik var, ayrılıq var, ölüm var.**

Şəhriyar bu poemanı anası Kövkəb xanımın gileyli və çox müdrikliklə söylənmiş bir ifadəsinin cavabı olaraq qələmə alıb. Anası deyib: "Oğlum, Şəhriyar, sənə böyük şair deyirlər, fəqət necə yazırsan ki, mən anlamıram?". Heydərbaba dağ adıdır, Şəhriyarın bu əvəzsiz və möhtəşəm poeması isə dağların ən ucası və həm də onun sinəsinə çəkilən ayrılıq dağıdır. Əslində, hər bir yaradıcı insan, qələm sahibi sadəliklə fikrini ifadə etməyi bacararsa, oxucunun könlünü fəth edə bilər. Elin ətəyindən yapışarsa, onun dili ilə danışaraq, onun fikir və düşüncələrinə istinad edərək yazıb-yaradarsa, yaşadığı dövrün nəbzini tutmağı bacarar və uğurlu əsərlərə imza ata bilər. Həyatında görüb yaşadıqları yaxşını da, pisi də, iştirakçısı olduğu hadisələrin müsbət-mənfi tərəflərini də doğma dilində tərənnüm edən və bunu özünün çoxşaxəli yaradıcılığının qayəsi hesab edən böyük Şəhriyar elə buna görə sevilən, adı dillər əzbəri olan şairdir, olub və olacaqdır. Şəhriyar etiraf edib ki, uşaqlığında görüb-eşitdikləri, ətrafında cərəyan edən hadisələr, bir yerdə gəzib-dolaşdığı tay-tuşlarının yaşadıqları və elinin-obasının adət-ənənələrinə vurğunluğu da anasının arzusu ilə üst-üstə düşüb və Azərbaycan dilində bu əvəzsiz poema qələmə alınmışdır. "Heydərbabaya salam" poeması iki hissədən ibarətdir. Şair birinci hissəni Tehranda, ikinci hissəni isə Təbrizdə yazmışdır. Bu əsəri himnə və çağırışa bənzədənlər də az olmayıb. Poemanın hər bəndi ayrı-ayrılıqda bütöv və tam bir həyat mənzərəsi əks olunan rəsm əsərinə bənzəyir. Oxuyursan, görürsən, eşidirsən və o hissləri içəridən yaşayırsan.

Düşünürəm, hansı birimizi Rübabə Muradovanın ifasında səslənən, Şəhriyarın dərd yuvasına dönən sinəsindən qoparaq nisgilin ifadəsinə çevrilən bu yanıqlı cümlələr ağlatmayıb?

**Heydərbaba, ildırımlar çaxanda,**
**Sellər-sular şaqqıldayıb axanda,**
**Qızlar ona səf bağlayıb baxanda,**
**Salam olsun şövkətizə, elizə,**
**Mənim də bir adım gəlsin dilizə.**

Şəhriyar inanırdı və əmin idi ki, bu qədər böyük məhəbbətlə elinə-obasına bağlılıq və həsrət onun adını dillərdən düşürməyəcək. Nə qədər ki, qədirbilən Azərbaycan xalqı var, Şəhriyar da var olacaqdır. Çünki Şəhriyar öz yaradıcılığı ilə şöhrətin zirvəsinə yüksələn böyük şairlərdəndir. Onun ana dilində yazdıqları isə qəmə-kədərə bələnsə də, sabaha inamla dolub-daşır və böyük yaradıcılığının ən önəmli hissələrindən birini əhatə edir.

Məhəmmədhüseyn Şəhriyar bütün yaradıcılığı boyu vətənin bütövlüyü ağrısını, sızıltısını oxucusuna pıçıldayır. Tanıdığı, sevdiyi insanların, qohum-əqrəbasının, tay-tuşlarının adını da şeirlərində və poemalarında birər-birər çəkir, xatırlayır və bununla da əhdinə sadiqliyin nümunəsinə çevrilir. Onun böyük ürəyi vardı və Şəhriyar çox vəfalı idi. "Heydərbabaya salam" poemasında bunlar daha bariz formada, daha gözəl lövhələrlə oxucunun gözləri önündə sərgilənir.



Şəhriyar bu poemada Xoşginab xalqının xarakterini bütövlükdə açıb göstərir və orada tanıyıb-gördüyü insanların bir-bir adlarını çəkir, səmimi bir şəkildə onlardan söz salır və böyük məhəbbətlə oxucusuna təqdim edir. Poemanı oxuyan zaman Aşıq Rüstəmi, Məlikniyazı, Mirqadiri, Axund Eyyubu, Qulamı, Mirəbdülü, bayramda şalına corab bağlayan Fatma xalanın kövrəkliyini, Fizzə xanımın və Nənəqızın gözlərini, Rəxşəndənin bal təki sözlərini xüsusi sevgi ilə xatırladığı, bir-bir adlarını çəkdiyi seyidlərin xarakterlərini və xoş əməllərini oxucusunun qəlbinə ustalıqla köçürə bilir. Onların obrazını yaradaraq, Şəhriyar özü də bütöv varlığı ilə onların arasında görünür və unuda bilmədiyi o həyatı yaşayanların birinə çevrilir.

**Heydərbaba, Nənəqızın gözləri,**
**Rəxşəndənin şirin-şirin sözləri,**
**Türkü dedim, oxusunlar özləri,**
**Bilsinlər ki, adam gedər, ad qalar,**
**Yaxşı-pisdən ağızlarda dad qalar.**

Poemanı oxuyan hər bir kəs onun ifadələrinin qanadlarında xəyalən də olsa, Xoşginabdan ötüb-keçib, oraları görüb, o həyata bələd olub geri qayıdır və sanki böyük Şəhriyarın yaşadıqlarını yaşayır. Oxucu yaşından asılı olmayaraq, ustalıqla qələmə alınmış bu həyat səhifələrini vərəqlədikcə, onların fərqinə vardıqca, o xatirələr karvanına qoşulub Şəhriyar qələminin qüdrətinə valeh olur, özü də içəridən təzələnir, bütövləşir. Ədəbiyyatda da öz hiss və duyğularını oxucunun qəlbinə köçürə bilmək əsl məharətdir.

Mən də Şəhriyara vurğun olan biri kimi hələ orta məktəb illərində atamın böyük kitabxanasında qorunan və ən gözəl yerində saxlanılan böyük Şəhriyarın əsərlərinin, şeirlərinin, poemalarının çoxunu sevər və bəzilərini əzbər bilərdim. İllər sonra artıq universitetdə işləyərkən bir gün həyat yoldaşım Çərkəzlə Nizami muzeyinin ətrafında gəzişirdik. Azərbaycan Televiziyasının "Günün ekranı" xəbərlər proqramının çəkiliş qrupu ilə rastlaşdıq. O il ilk dəfə idi ki, Novruz bayramını hökumət səviyyəsində keçirmək haqda qərar verilmişdi. Bu qərar olmadan da Novruz bayramı Azərbaycan xalqının hər vaxt əziz tutduğu, geniş formada qeyd elədiyi bayramlardan biri və ən önəmlisi idi. Və o gün həmin çəkiliş qrupu bizdən müsahibə almaq istəyəndə, rəhmətlik yoldaşım folklorçu ola-ola, adət-ənənələrimizi gözəl bilə-bilə (elmi işi də folklordan idi) mənə üzünü tutub, müsahibə götürənə dedi:

-Sona xanım Şəhriyarı çox sevir və indi o, sizin sualınıza Şəhriyarın poemasından Novruz bayramı ilə əlaqədar olan bir parça ilə cavab verər. Mən də həvəslə çox sevdiyim Şəhriyarın "Heydərbabaya salam" poemasından dillər əzbəri olan aşağıdakı iki bəndi əzbər dedim. Söylədiklərim də xəbərlər proqramında göstərildi.

**Bayram idi, gecəquşu oxurdu,**
**Adaxlı qız bəy corabın toxurdu,**
**Hər kəs şalın bir bacadan soxurdu,**
**Ay nə gözəl qaydadı şal sallamaq,**
**Bəy şalına bayrampayı bağlamaq.**

**Şal istədim, mən də evdə ağladım,**
**Bir şal alıb tez belimə bağladım,**
**Qulamgilə qaçdım, şalı salladım,**
**Fatma xala mənə corab bağladı,**
**Xan nənəmi xatırlayıb ağladı.**

Şəhriyarın Novruz bayramına sevgisi, el adət-ənənələrinə vurğunluğu bütün çalarları ilə bu poemada aydın şəkildə gözlərimiz önündə canlanır və işığa dönüb gözlərimizi qamaşdırır. Bu bayramın şirinliyini, böyüklüyünü, mənasını, dadını və tamını, elin-obanın bu bayrama hazırlaşarkən yaşadıqlarını sehrli bir dildə oxucusuna çatdırmağı, düşünürəm ki, ancaq Şəhriyar qələmi bacarardı, ürəklərə köçürə bilərdi. Məmmədhüseyn Şəhriyar təkcə böyük şair deyil, o, həm də böyük maarifçidir, vətəninə, xalqına vurğun vətəndaşdır. Onun hər bir cümləsi haraydır. Yaşadıqları da, yaratdıqları da məktəbdir. Dili bal, üslubu isə həyatın əsl üzü və özüdür. Şəhriyar mənə bir də ona görə çox doğmadır ki, o, dərdə-qəmə qol açan, qismətinə üsyan etsə də, dərdlərini çəkdikcə çəkə bilən, taleyindən qaçmayan, ağrılarını köksünün altına yığan böyük ürəkli insan idi.

**(ardı 7-ci səhifədə)**